# Yeni dövrün reallıqları

## Lider yenilməzliyi ilə güclü Azərbaycan gələcəyə işıq salır



*Xalqın tarixi onun həyatının unudulmayan anlarının salnaməsidir. Bu anlar xalqın keçmişindən xəbər verir, taleyini müəyyən edir, gələcəyinə işıq salır. Azərbaycan siyasi sabitlik adası kimi nüfuz qazanıb. Artıq dünyada sözünə imzası qədər dəyər verilən qalib, bütövləşən Azərbaycanla bütün sahələrdə hesablaşırlar. Dövlətimizin ədalətə və beynəlxalq hüquqa söykənən siyasətinin uğurları davamlılığı ilə seçilir. Cənab Prezident İlham Əliyev bütün çıxışlarında bu reallığı da diqqətə çatdırır ki, əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq.*

Azərbaycanın dövlət müstəqilliyinin bərpası, qısa vaxtda möhtəşəm iqtisadi yüksəliş yolu keçərək müasir və qüdrətli məmləkətə çevrilməsi tariximizin şərəfli səhifələrini təşkil edir. Ölkəmizin müasir tarixi iki qüdrətli - müstəqil Azərbaycan dövlətinin qurucusu ümummilli lider Heydər Əliyevin və Vətən müharibəsinin qalibi, Qarabağın xilaskarı Prezident, Ali Baş Komandan İlham Əliyevin müdriklik, qətiyyət və qəhrəmanlıq salnaməsidir.




2003-cü ildə keçirilmiş seçkilərdə xalq öz səsini ulu öndər Heydər Əliyev siyasətinin davam etdirilməsinə və ölkədə sabitliyin qorunmasına verdi. Şuşalı, irəvanlı, zəngəzurlu gələcəyimizə, sabahımıza səs verdik. Vətən sevinsin deyə xalq, millət doğru seçimini etdi. Ən doğru seçimilə şanlı millət, məğrur xalq bu dövləti qüdrətli, yenilməz, dönməz liderinə - İlham Əliyevə tapşırdı. Ulu öndər yolunun layiqli davamçısı olduğunu xalqına, millətinə, bütün dünyaya göstərdi, yüksək liderlik bacarığını bir daha sübut etdi. Sübut etdi ki, yalnız tərəfdarlarını, xalqı arxasınca aparan rəhbər lider deyil, lider həm də tarix yazan, tarixin yazdığı və tarixin gedişatına həlledici təsir göstərə bilən şəxsiyyətdir. Seçildi və strateji hədəfləri reallığa çevirməklə möcüzə yaratdı. Prezident İlham Əliyevin yürütdüyü siyasət müasir Azərbaycanın güclənməsinə, milli-mənəvi dəyərlərimizin ən yüksək səviyyədə qorunmasına xidmət etdi. Tolerantlıq həyat tərzi olan Azərbaycan Prezident İlham Əliyevin xidmətləri sayəsində mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məkanı kimi tanındı.



Bu gün Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Bu inkişafın əsasında uğurla, uzaqgörənliklə reallaşdırılan daxili və xarici siyasət kursu dayanır. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji kursun Prezident İlham Əliyev tərəfindən müasir dövrün reallıqlarına, tələblərinə və qanunauyğunluqlarına müvafiq surətdə uğurla və qətiyyətlə davam etdirilməsi indiki milli inkişafın fundamental əsaslarını təşkil edir. Müxtəlif inkişaf modellərinin uğurla tətbiqi və hədəflənən nəticələrin əldə olunması, sosial-siyasi islahatların mütəmadi qaydada həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyəti və hüquqi dövlətin inkişafına maksimum əlverişli şəraitin yaradılması, möhkəm təməllərə söykənən ictimai-siyasi sabitliyin qorunması, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc müstəvisində sürətli şəkildə irəliləməsi müasir Azərbaycanın gerçəkliklərini təşkil edir. Hazırda inamla irəliləyən ölkəmizdə müstəqil siyasət, müstəqil dövlətçilik, müstəqil xarici siyasət, müstəqil daxili siyasət milli ideologiyanın əsas prioritetləridir. "Bu gün beynəlxalq münasibətlərdə "kim güclüdür, o da haqlıdır" prinsipi üstünlük təşkil edir". Bu fikri öz çıxışlarında, bəyanatlarında dəfələrlə vurğulayan Prezident İlham Əliyev qətiyyətli siyasi iradəsi ilə güclü dövlət konsepsiyasını həyata keçirməklə iqtisadi, siyasi və hərbi güc yaratmağa nail oldu. Bu üç gücün vəhdəti keçmiş Qarabağ münaqişəsini tarixə qovuşdurdu, bölgədə yeni reallıqlar yaratdı.

Son 21 ilin reallıqlarının təhlili hər bir vədin konkret əməli işdə öz təsdiqini tapdığını göstərir. Dövlət başçısı İlham Əliyev 2024-cü il 14 fevral tarixində Milli Məclisdə keçirilən andiçmə mərasimində "2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik" söyləyərək onu da əlavə etdi ki, indi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə ki, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş, o cümlədən bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq. Mənim buna şübhəm yoxdur. Azərbaycan cəmiyyətində hökm sürən çox müsbət ab-hava bizi daha da gücləndirir. Güclü Azərbaycan həmişə hədəfimiz olub. Cənab İlham Əliyev Azərbaycanın qazandığı uğurları geniş təhlil edərək onların fonunda böyük qürur hissi ilə qeyd etdi ki, bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Yeni dövr uğurla başlayır, uğurla da davam edəcək.

Ulu öndər Heydər Əliyevin əsas amalı işğal olunmuş torpaqlarımızın azad olunması və ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi idi. Siyasi davamçısı cənab İlham Əliyev də Prezident seçildiyi ilk gündən bu amala xidmət edir, öz əməli fəaliyyəti həmin günləri yaxınlaşdırırdı. 2003-cü ildən etibarən ordu quruculuğu məsələlərini dövlət siyasətinin prioriteti kimi müəyyən etmiş Prezident cənab İlham Əliyevin planlı və ardıcıl şəkildə gördüyü işlər Azərbaycan ordusunu dünyanın ən güclü 50 ordusu sırasına yüksəltdi. Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və Ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Müharibə nəticəsində 300-dən çox şəhər və kənd döyüş meydanında işğaldan azad edildi. Düşmən ağ bayraq qaldırdı, təslim oldu. Azərbaycan öz möhtəşəm Zəfəri ilə yeni reallıqlar yaratdı.

Azərbaycan xalqı həmişə olduğu kimi, müharibə zamanı da öz Prezidentinə inandı. Xalqımız cənab İlham Əliyevin ətrafında sıx birləşdi, öz ordusunun arxasında dayandı. Bu vəhdət dəmir bir yumruğa çevirildi. Elə bir yumruğa çevrildi ki, bu yumruğu açmağa heç kimin gücü və qüdrəti çatmaz. Prezident cənab İlham Əliyevin hərb meydanında Müzəffər sərkərdə, diplomatiya cəbhəsində də böyük diplomat va güclü siyasətçi



olması öz təsdiqini tapdı. Cənab İlham Əliyev 44 gün ərzində informasiya sahəsində Azərbaycan xalqının haqq səsi oldu, cəsarətlə, qətiyyətlə bütün xarici təzyiqlərə sinə gərdi və mübarizlik rəmzinə çevrildi. Cənab İlham Əliyev Prezident seçildiyi ilk vaxtdan bir gün də olsun Qarabağla bağlı xalqımızın ruh düşkünlüyünə qapılmasına yol vermədi. Xalqımız da hər zaman vətən həsrətini, vətən sevgisini ürəklərində yaşatdı. Hər zaman vətəni və dövləti sevməyi və qorumağı hər şeydən üstün tutan gənclərimiz də bu ruhda tərbiyə olundu. Müharibəni də məhz bu ruhda yetişən gənclərimizin qəhrəmanlığı nəticəsində qalib xalq kimi qazandıq. Ulu öndər Heydər Əliyev xalqla görüşlərində "Biz Şuşanı da, Laçını da, Kəlbəcəri də və işğalda olan bütün torpaqlarımızı qaytaracağıq" deyirdi. Cənab İlham Əliyev ulu öndərin siyasi kursunu, irsini rəhbər tutaraq bu yolu davam etdirdi. "Biz Qarabağı qaytaracağıq, Qarabağ Azərbaycan torpağıdır" söyləyirdi. Ölkə başçımız ulu öndərə və xalqa verdiyi vədləri yerinə yetirdi. Xalqımızın qürur yeri, mədəniyyət beşiyimiz olan Şuşa şəhərinin işğaldan azad edildiyi gün cənab İlham Əliyevin ulu öndərin qəbrini ziyarət etməsi və orada "Mən xoşbəxtəm ki, ata vəsiyyətini yerinə yetirdim" deməsi xalqın öz liderinə olan sevgisini daha da artırdı. İlham Əliyev öz dövlətinə, xalqına bağlı bir şəxsdir. Ulu öndərin "Mən İlham Əliyevə özüm qədər inanıram" deməsi öz təsdiqini tapıb. Azərbaycan Qarabağa, Şərqi Zəngəzura qovuşub. Azərbaycan Ordusu Xocalı qurbanlarının, müharibədə günahsız qətlə yetirilmiş mülki əhalimizin, şəhidlərimizin qisasını döyüş meydanında aldı. Biz bütün dünyaya göstərdik ki, bir qarış torpağımızı da işğalda saxlamayacağıq. Böyük Zəfərdən sonra artıq Böyük Qayıdış proseslərinə başlanılıb. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev böyük dövlət xadimi, dünya azərbaycanlılarının lideri kimi artıq işğaldan azad edilmiş torpaqlara qayıdış prosesinə də rəhbərlik edir. Bu missiyada da bütün Azərbaycan xalqı İlham Əliyevin ətrafında mütəşəkkil şəkildə birləşib.

Bu gün işğaldan azad edilmiş ərazilərimizdə sürətli bərpa-quruculuq həyata keçirilir. Böyük Qələbə nəticəsində yaradılmış yeni reallıq Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış strategiyasının aktuallığını təmin edir. Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq sıfırdan yeni şəhər və kəndlər salır. Azad olunmuş Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji" zonası elan edilmiş, birinci pilot layihə çərçivəsində Zəngilanda "Ağıllı kənd" layihəsi icra olunmuşdur. Bir sözlə, işğaldan azad olmuş ərazilərdə irimiqyaslı infrastruktur layihələr icra olunur, bərpa-quruculuq sürətlə davam etdirilir. Həyata keçirilən bərpa-quruculuğun əsas məqsədi 30 il torpaqlarından didərgin düşmüş soydaşlarımızın tezliklə öz yurd-yuvalarına qayıtmasını təmin etməkdir. Bununla əlaqədar olaraq Prezident cənab İlham Əliyev 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət Proqramının hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınmışdır.

Bu gün bu işlər yüksək səviyyədə və sürətlə həyata keçirilir. Bundan başqa, bu ərazilərdə beynəlxalq hava limanları inşa edilir. Həmçinin Şuşaya Azərbaycanın mədəniyyət paytaxtı adı verilib. Şuşa Türk dünyasının mədəniyyət paytaxtı elan edilib. Çünki Şuşa qədim tarixə, yüksək mədəniyyətə və milli-mənəvi dəyərlərə malikdir. Dünya Azərbaycanlılarının V Qurultayının Şuşada keçirilməsi buna bariz nümunədir. Bu qurultayın Zəfər Qurultayı adlandırılması isə bütün dünyaya mesaj oldu. Dünya Azərbaycanlıları Azərbaycanın gözündə - Şuşada toplanaraq Qurultay keçirdilər. Bu Qurultay işğaldan azad edilmiş ərazilərdə Dünya Azərbaycanlılarının ilk qurultayı idi. Bunu həyata keçirməklə Azərbaycan hakimiyyəti bu torpaqların xalqımıza əbədi məxsusluğunu bir daha bəyan etdi.

Beləliklə, Prezident İlham Əliyev ata vəsiyyətini şərəflə yerinə yetirdi, xalqına, məcburi köçkünlərə verdiyi sözə sahib çıxdı, güclü Azərbaycan yaradaraq düşməni onunla hesablaşmağa vadar etdi. Azərbaycanın ərazi bütövlüyünü bərpa edən müdrik lider, böyük strateq, qalib sərkərdə kimi adını əbədi olaraq tarixə yazdı.

**Mustafa KAMAL,**
**"Respublika".**